# "Məşhurlar ancaq öz ölkəmizdə ulduzdurlar"

***"Musiqiçilər haqqında yazdığım tənqidlər onlar tərəfindən heç vaxt normal qəbul edilməyib. Əksinə, aqressiya ilə qarşılayıblar. İstər Xalq artisti olsun, istərsə də adi bir musiqiçisi olsun. Çoxusu özünü toxunulmaz hesab edir. O qədər təriflər eşidiblər ki, mən tənqid edəndə elə düşünürlər ki, onları söyürəm". "Ədalət" qəzetinin qonağı kamança ifaçısı Təbriz Yusubovdur.***

**-İlk olaraq özünüz haqqında oxucularımıza məlumat verin...**

-Musiqi təhsilim 5 saylı uşaq incəsənət musiqi məktəbindən başlayır. Valideynlərim qardaşımı tar aləti üzrə musiqi məktəbinə qoymuşdular. Onda evdə ağladım ki, mən də kamança alətini öyrənmək istəyirəm. Yaşım az olduğu üçün əvvəlcə tərəddüd etdilər, lakin sonradan məni də musiqi məktəbinə apardılar. Buna görə çox sevinirdim. Sözün əsl mənasında uşaq kimi sevinirdim. Həmin məkətəbi bitirdikdən sonra G.G.Şaroyev adına 35 saylı 11 illik musiqi məktəbində təhsilimi davam etdirdim. Burada təhsil almaqda məqsədim isə Azərbaycan Milli Konservatoriyasına qəbul olmaq idi. Nəhayət, oranı da bitirdikdən sonra hazırlaşıb Konservatoriyaya imtahan verdim. Qabiliyyət imtahanını müvəffəqiyyətlə keçdim, amma test imtahanında balım az olduğu üçün qəbul ola bilmədim. Həmin vaxt çox həvəsdən düşdüm. Lakin sonradan qarşıma məqsəd qoyub növbəti ildə yenidən imtahan verdim və qəbul oldum və 2012-ci ildə oranı bitirdim. Təhsil müddətim bura qədər olub.

### *"Musiqiyə qazanc yeri kimi baxıram"*

**-Musiqi sizin üçün nə deməkdir?**

-Musiqi mənim üçün qazanc yeri deməkdir *(gülür)*. Mən səmimiyyəti xoşlayan insanam, odur ki, səmimi danışacam. Hamı öz sənətinə qazanc yeri kimi baxır da. Hamı kimi şablon fikirlər, quraşdırma cümlələr söyləmək istəmirəm. Onu bacarmıram mən. Bəlkə, əvvəllər mən də o cür danışardım, amma sonradan həqiqətin nə olduğunu anladım. Ona görə hazırkı vəziyyətdə musiqiyə qazanc yeri kimi baxıram. Hərdən deyirlər ki, bu bizim işimizdir. Ona görə də filan yerə gedib pulsuz iştirak etmək lazımdır, filankəslə efirə pulsuz çıxmaq lazımdır. Mən belə düşünmürəm. Hamı maddi vəsaitini öz sənəti ilə qazandığı kimi biz də bu sənətlə qazanmalıyıq. Yoxsa filankəs xanımla və yaxud filankəs bəylə pulsuz getmək lazımdır anlayışı mənim üçün keçərli deyil. Bir sözlə hələ ki, pulu bu sənətdən qazandığım üçün musiqiyə qazanc yeri kimi baxıram.

**-Kaman ayrılıq nəğməsini çalır. Niyə məhz kaman? Qəlblərimi ifadə edir, ondan ötrümü?**

-Maraqlı sualdır. Düşünmürəm, yalnız ayrılıq nəğməsi çalır. Bəzən qovuşdurmaq nəğməsini, bəzən isə coşdurma nəğməsini də çalır. Sadəcə kamança alətinin səsi həzin olduğu üçün insanlar bunu ayrılıqla əlaqələndirir. Kamançanın səsində sevgi də var, hətta gülüş də var.

Kamançanın səsindəki gülüşlərdən danışım bir az. Mərhum sənətkarımız Habil Əliyev o vaxt cücələrim mahnısını çalan zaman cücə və toyuq səsləri çıxartmışdı. İnsanlar arasında çox maraqla qarşılanmışdı. Mən də bəzi heyvanların səsini çıxara bilirdim. Amma içimdə bir kompleks var idi. Nəhayət bir gün bu kompleksi dağıtdım və kamançada çıxartığım bütün səsləri videoya çəkərək sosial şəbəkədə paylaşdım. Etiraf edim ki, maraqla qarşılayanlar da oldu, tənqid edənlər də. Amma ətrafımdakı dostlar məni yenidən kompleksə saldı. Videonu kim görürdüsə hamısı zəng edib deyirdi ki, sənə yaraşmır belə şeylər, ayıbdır. Hətta "Facebook" hesabımda paylaşdığım həmin videonu sildirdilər də.

### *"Təhqir istənilən halda yolverilməzdir"*

**-Sosial şəbəkədə tez-tez müxtəlif şəxsləri tənqid edirsiniz. Bunların içərisində musiqiçilər də var. İnciyənlər olurmu sizdən?**

-Bəli, tənqid edirəm. Tək musiqiçiləri yox, düzgün olmayan çox şey barədə tənqidi fikirlərimi yazıram. Elə adam var, normal qəbul edir, elə adam da var, bunu təhqir kimi qəbul edir. Hamı bilir ki, mən tənqidə açıq insanam. Əgər nəsə səhv iş görürəmsə, məni də tənqid edə bilərlər. Təhqir isə istənilən halda yolverilməzdir. Bəzən tənqidi qəbul etməyən insan adama təhqirlə cavab verir. Düşünürəm ki, həmin insanın düşüncəsində problem var.

Musiqiçilər haqqında yazdığım tənqidlər onlar tərəfindən heç vaxt normal qəbul edilməyib. Əksinə, aqressiya ilə qarşılayıblar. İstər Xalq artisti olsun, istərsə də adi bir musiqiçisi olsun. Çoxusu özünü toxunulmaz hesab edir. O qədər təriflər eşidiblər ki, mən tənqid edəndə elə düşünürlər ki, onları söyürəm. Hətta eşitmişəm ki, musiqi aləminin 80 faizi mənə qıcıq olur. Bunun nə dərəcədə doğru olub-olmadığını dəqiq bilmirəm. Yəni özüm belə bir şey hiss etməmişəm. Yəqin ki, 80 faiz deyib çox şişirirlər.

Qeyd edim ki, digər sahədən olan insaları da tənqid etmişəm. Amma heç vaxt aqressiv cavab görməmişəm.

**-Sosial şəbəkədən söz düşmüşkən, "instagram" ulduzları haqqında nə deyə bilərsiniz?**

-"İnstagram" ulduzlarına qeyri-ciddi baxıram. Vaxtımı sərf edib heç izləmirəm onları. Arada qarşıma çıxanda təsadüfən görürəm. Mənasız şəkillər, videolar paylaşırlar. Bir dəfə cəmiyyətə, dövlətə xeyiri olan nəsə paylaşdıqlarını görməmişəm. Özü də həmin ulduzlar nədənsə heç kimi izləmir. İstəyirlər ki, ancaq onları izləsinlər. Etiraf etmək lazımdır ki, onları izləyənlər çoxluq təşkil edir. Amma hansısa alimi, yazıçını heç bu qədər izləyən yoxdur. Çünki həmişə zərərverici şeylər insana maraqlı gəlib. Təbii ki, bu fikrim hamıya şamil olunmur. Özləri bilir, kimə aid edirəm.



### *"Musiqiçi var, illərdir, irəli gedə bilmir"*

**-Sənətdə bəxt amili də mühim rol oynayır. Sizin fikrinizcə necə?**

-Bəli, bəxt amili mütləq rol oynayır. Əgər rol oynamasaydı, bəzi sənəti olmayanlar bu cür məşhur ola bilməzdi. Elə musiqiçi var, çox istedadlıdır, amma illərdir, irəli gedə bilmir. Hərdən deyirlər, gərək zəhmət çəkəsən ki, bəhrəsini görəsən. Bəzən bu belə olmur. Elə musiqiçi tanıyıram ki, neçə illərdir, əziyyət çəkir, amma bir yerə çıxa bilmir. Elə musiqidən kənar adam da tanıyıram ki, zarafata bir mahnı oxuyub, onunla da populyar olub. Cəmiyyəti elə formalaşdırmışıq ki, ciddi iş görəndə diqqət mərkəzindən kənarda qalırsan, qeyri-ciddi iş görəndə milyonların izləyicisinə çevirilirsən. Normal hal kimi qəbul etmirəm bunu.

**-Dünya şöhrətli musiqiçilər çox sadədirlər. Bəs bizdə niyə bəziləri ulduzluq havasında olur?**

-Bizim məşhurlar ancaq öz ölkəmizdə ulduzdurlar. Təyyarə ilə xarici ölkənin hava limanına düşən kimi metroya da minirlər, küçədə də gəzirlər. Deməli, onları ulduzluq havasına salan elə özümüzük. Özü də bu havaya əsasən estrada ifaçıları düşür.

Başıma gələn hadisəni sizə danışım. Müğənnillərin biri ilə dövlət qurumunda rastlaşmışdım, üzümə baxdı, amma salamlaşmadı. Özü də dəqiq bilirəm ki, məni tanıyır. Ulduzluq havasında olan həmin müğənnini günlərin birində xarici ölkənin hava limanında gördüm. Amma orada üzümə baxıb gülərüzlə salamlaşdı. Bir az sadə olmaq lazımdır. Bu vəziyyəti özümüz yaratmışıq. Onlar ulduzluq havasının dərinliyinə getdikcə biz daha çox pərəstiş etməyə başlayırıq.

**-Olubmu elə bir situasiya ki, öz prinsiplərinizə əlvida demisiniz?**

-Məni sosial şəbəkədən izləyən və ətrafımda olan insanlar bilir ki, mən qanunçuluq prinsipi ilə yaşamağı sevirəm. Bu prinsiplə yaşamağa xüsusən 2014-cü ildən başladım.

Bu prinsiplərimə də heç vaxt əlvida deməmişəm. Əksinə daha da yaxınlaşmışam. Əgər sağlam cəmiyyət qurmaq istəyiriksə, mütləq şəkildə ölkəmizin qanunlarına əməl etməliyik. İnsanlar bəzən ölkədə baş verən qanunsuzluqlardan gileylənirlər, amma özləri qanunlara əməl etmirlər. İstər məmuru, istərsə də cəmiyyətin ən sadə insanı bu ölkənin vətəndaşıdır. Əgər ölkə olaraq, cəmiyyət olaraq inkişaf etmək istəyiriksə, qanuna əməl etməyə özümüzdən başlamalıyıq. "Əşi, mən düzəltməklə nəsə düzələn deyil" prinsipi bizi inkişafdan saxlayır. Bəzi müğənnilər var efirdə fəxrlə deyir ki, mən filan qaydanı pozdum, yol polisi hörmət etdi.

Soruşanda isə: "Toya tələsirdim",-deyir. Sənin toya tələsməyin ölkənin qayda-qanunundan üstün ola bilməz. Düzgün düşüncə deyil bu. Vətən Müharibəsi vaxtı hamı vətən sevgisindən danışırdı.

Vətən sevgisi sosial şəbəkədə müharibə ilə bağlı paylaşım etmək demək deyil. Bir insan ki, ölkəsinin qanunlarını saymır, o, hansı Vətən sevgisindən danışır? Bir sözlə, prinsiplərimə heç vaxt əlvida deməyəcəm.

### *"Deməzdim, kinli insanam"*

**-Kinli insansiniz?**

-Mənə pislik edən insana qarşı içimdə kin olur. Amma o insan səhv etdiyini anlayanda ona qarşı kin saxlaya bilmirəm. Deməzdim, o qədər kinli inasanam. Əsasən yumşaq və kövrək hisslərim var. Hərdən elə məsələlər olur, özümə söz verirəm ki, bu işin sonun qədər gedəcəm. Amma qarşı tərəf mənə bir-iki xoş söz deyən kimi fikrimi dəyişirəm. Daha doğrusu, yumşalıram.

**-Hansı situasiyada kimisə bağışlamarsınız?**

-Sözün açığı, kimisə bağışlamamaqla bağlı bir situasiya yadıma gəlmir. Həyat təcrübəmdə elə şeylər baş verib ki, bağışlanmaz hərəkət edən adamları da bağışlamışam. Guya, mən bağışlamasam, nə dəyişəcək? Həmin adam səhvini başa düşmürsə, o qədər bağışlamayım ki.

Səhvini başa düşən insan mənim üçün böyük insandır. Həmin insan etdiyi hərəkətin səhv olduğunu anlayırsa, onun üzr istəməsi arxa plana keçir. Amma bir insan mənə qarşı səhv hərəkət edib sonradan etdiyi hərəkətin səhv olduğunu qəbul etmirsə, o zaman qanunla məsuliyyətə cəlb edilməsi üçün əlimdən gələni edirəm.

**-Sizə minnətdaram ki, dəvətimi qəbul edib müsahibə verdiniz...**

-Mən sizə təşəkkür edirəm.

**Rövşən Tahir**